

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 avqust 2022-ci il №59 (2670) https://mod.gov.az Qiyməti 30 qəpik

Təlim

## Yüksək döyüş hazırlığı ilə Vətən sevgisinin vəhdəti hər zaman qələbəyə aparır



*İstər pre-konflikt, konflikt, istərsə də post-konflikt dövründə istehkamçıların üzərinə böyük və məsuliyyətli vəzifə düşür. Təbiidir ki, məsuliyyətli işin öhdəsindən layiqincə gəlməyi bacarmaq üçün yüksək döyüş hazırlığı, polad iradə tələb olunur. Çünki burada insan amili, ölüm riski olduğunu nəzərə alaraq, mühəndis istehkamçının səhvə yol vermə şansı yoxdur. Bunun üçün də peşəkarlıq ən vacib amilə çevrilir.*

Ordu rəhbərliyinin qarşıya qoyduğu tapşırıqlara əsasən, istehkamçılarımızın öz ixtisasının və müasir tələblərin incəliklərinə dərindən yiyələnməsi üçün mühəndis hissə və bölmələrində arzuolunan şərait yaradılır. Mühəndis şəhərcikləri salınır, şəxsi heyət modern standartlara cavab verən mühəndis təchizatı alətləri ilə təmin edilir. Günümüzün tələblərinə uyğun qurulan mühəndis bölmələrində xidmət edən, dərslərdə, məşğələlərdə yetişən, təlimlərdə bərkiyən istehkamçılarımız bu gün də müqəddəs amala xidmət edərək, tarixi ərazilərimizi mənfur düşmənin basdırdığı saysız-hesabsız minalardan təmizləyirlər. Bu gün mühəndis-istehkamçılarımız şərəfli xidmətləri ilə ata-baba yurdumuzda həyatın yenidən canlanması, firavanlığın təmin edilməsi üçün böyük səylə çalışır, Vətənə övladlıq borcunu layiqincə yerinə yetirirlər.

"N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Şərif Şəriflinin rəhbərliyi altında şəxsi heyətə döyüş hazırlığı üzrə praktiki çöl məşğələsi keçirilirdi. Dərsin rəhbəri mövzunu şəxsi heyətin diqqətinə çatdırır, tapşırıqları gənc istehkamçılarımıza izah edirdi. Bölmənin şəxsi heyətinə təminatda olan və müasir tələblərə cavab verən istehkam alətlərindən istifadə etmə, tapşırığı yerinə yetirmə üsullarını öyrədən dərs rəhbəri ilə fasilə zamanı tanış olduq.

44 günlük Vətən müharibəsində iştirak edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Şərif Şərifli Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Məşğələ rəhbəri gənc istehkamçıların müasir tələblərə cavab verən mühəndis alətləri vasitəsilə qarşıya qoyulmuş tapşırıqları qısa və təhlükəsiz şəkildə yerinə yetirdiklərini qeyd etdi. "Nəzərə alsaq ki, mənfur düşmən illərdir işğalda saxladığı ərazilərə çoxlu sayda mina döşəyib, bu bizim işimizin müddətini bir az uzadır. Həmçinin ərazidə çoxlu partlamamış sursatlara da rast gəlinir. Dərslər zamanı şəxsi heyətə mühəndis təminatı tapşırıqların praktiki icrasını başa salırıq. Əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədə olduğu üçün tələb olunan işin öhdəsindən layiqincə gəlirlər. Çünki onlar bu ixtisasın məsuliyyətini və incəliklərini başa düşür, ani səhv və ya məsuliyyətsizliyin uğursuz sonluqla bitəcəyini bilirlər. Belə hadisələrin baş verməməsi üçün müharibənin canlı şahidi olmuş, real şəraitdə yaşadığı təcrübəni komandir heyəti dərslərdə şəxsən iştirak edərək, öz əsgərləri ilə bölüşürlər. Hərbi peşəkarlığın yüksəldilməsinə yönəlik keçirilən məşğələlərdə mənimsənilən bilik və bacarıqlar, təlimlərdə sınaqdan keçirilir. Həyata keçirilən tədbirlər nəticəsində hərbi qulluqçular böyük təcrübə qazanır və verilən tapşırığın yerinə yetirilməsində zəruri şərtlərdən olan operativlik və dəqiqlik təmin olunur. Dərslərin necə mənimsənilməsini öyrənməkdən ötrü tapşırıqlar təyin olunmuş normativlər əsasında yerinə yetirilir. Biz də öz növbəmizdə Vətən müdafiəçisi olan oğulların yüksək hərbi biliyə malik əsgər kimi formalaşması üçün komandirlərimizlə birlikdə əlimizdən gələni əsirgəmirik".

Gənc istehkamçı əsgər Rəşad Məmmədovdan yerinə yetirilən fəaliyyətlər barədə söhbət edərkən onun verdiyi cavablar bölmədə döyüş hazırlığının həm praktiki, həm də nəzəri qaydada aparıldığının göstəricisi idi. Qısa müddətdir xidmət etməsinə baxmayaraq artıq ixtisasının və üzərinə düşən əsas vəzifədən məlumatlı olan Rəşad bizə istifadə etdikləri cihaz və avadanlıqlarla bağlı informasiya verir. "Əlimizdəki müasir minaaxtaran cihaz Türkiyə istehsalıdır. Bu cihazlardan istifadə etməklə basdırılmış müxtəlif təyinatlı (piyada və tank əleyhinə) minaları aşkar etmək mümkündür. İstehkamçı tərəfindən tapılmış minanın yaxınına mina lövhəli bayraqlar basdırıldıqdan sonra digər heyət üzvü tərəfindən minanın yerində zərərsizləşdirilməsi və ya təhlükəsiz əraziyə aparılması fəaliyyətləri icra edilir. Real ərazilərdə mühəndis təminatı tapşırıqlarını icra edən əsgər yoldaşlarım minaaxtarma prosesində zolaq və nişanların da önəmini xüsusi qeyd edirlər. Zolaq şəxsi heyətin təhlükəsiz ərazidə irəliləməsi, nişanlar isə texnika və avtomobillərin təhlükəsiz hərəkətini təmin etmək üçün istifadə edilir. Mən də növbəti tapşırıqlarda iştirak edəcəyim üçün sevincliyəm və o günləri səbirsizliklə gözləyirəm. İstəyirəm ki, işğaldan azad edilmiş ərazilərimizdə həyatın yenidən canlanmasında mənim də payım olsun".

Əsgər Rəşad Məmmədovla söhbət zamanı onu da öyrənirəm ki, dayısı Siyavuş Qasımov Birinci Qarabağ müharibəsində şəhid olub.

(Ardı 3-cü səhifədə)

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

İyulun 30-u səhər saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Yenikənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Dəmirçidam yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

* * *

İyulun 30-u günorta saatlarından etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan intensiv atəşə tutub.

Bölmələrimiz tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

* * *

İyulun 30-u axşam saatlarından başlayaraq 31-i gecə ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Gədəbəy və Kəlbəcər rayonları istiqamətlərində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan intensiv atəşə tutub.

Bundan başqa, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Ordumuzun Xocavənd rayonunun Əmiranlar yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri də müxtəlif çaplı atıcı silahlar və snayper tüfənglərindən atəşə tutulub.

Qeyd olunan istiqamətlərdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib

*İyulun 30-da Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də video-bağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmə komandirlərinin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sədrliyi ilə keçirilən cari ilin altı ayının yekunlarına həsr olunan müşavirədə Azərbaycan Ordusuna yüksək qiymət verildiyini diqqətə çatdıran müdafiə naziri dövlətimizin başçısı tərəfindən səsləndirilən fikirlərin Azərbaycan Ordusunun qarşısında qoyulan vacib tapşırıqlar olduğunu bildirib.

Azərbaycan-Ermənistan dövlət sərhədindəki, eləcə də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi zonasındakı əməliyyat şəraitini və mövcud vəziyyəti geniş təhlil edən nazir qarşı tərəfin törədə biləcəyi istənilən təxribatın qarşısının dərhal və qətiyyətlə alınmasına daim hazır olmağı əmr edib.

Döyüş hazırlığı prosesinin altı aylıq yekun nəticələrinə əsasən, qoşunlarda yoxlamaların keçiriləcəyi müşavirə iştirakçılarının diqqətinə çatdırılıb.

General-polkovnik Zakir Həsənov yeni tədris dövründə hərbi qulluqçuların peşəkarlığına və qoşunların döyüş hazırlığına diqqət yetirilməsinə, təlimlərin və səhra məşğələlərinin intensivliyinin artırılmasına, eləcə də bölmələrin döyüşə hazırolma səviyyəsinin yüksək səviyyədə saxlanmasına dair xüsusi göstərişlər verib.

Müdafiə naziri bölmələrdə qışa hazırlıq işlərinin plana əsasən tamamlanması, xüsusilə dağlıq ərazilərdə dislokasiya olunan bölmələrə lazımi ehtiyatların vaxtında çatdırılması, gənc əsgərlərin qəbulu, müvafiq bölmələrdə yerləşdirilməsi, həmçinin Hərbi And-içmə mərasimlərinə hazırlıq işlərinin yüksək səviyyədə təşkil olunması barədə aidiyyatı şəxslərə müvafiq tapşırıqlar verib.

Gündəlik xidməti fəaliyyətdə təhlükəsizlik qaydalarına riayət olunmasını təhlil edən general-polkovnik Zakir Həsənov bu qaydaların şəxsi heyətə mütəmadi olaraq çatdırılması və onlar tərəfindən ciddi əməl olunmasına daim nəzarət edilməsinin vacibliyini xüsusi vurğulayıb.

Müşavirənin sonunda qoşun xidmətinin təşkili, xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, həmçinin mühəndis təminatı üzrə zəruri tədbirlərin davam etdirilməsi ilə əlaqədar vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 95-ci ildönümü qeyd edilib





Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 95-ci ildönümü iyulun 29-da Bakıda qeyd olunub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Çinin Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən Çinin Azərbaycandakı hərbi attaşesi Vanq Lei Çin ordusunun yaranmasından, onun möhkəmləndirilməsi istiqamətində dövlətin gördüyü işlərdən danışıb. Bildirib ki, Çin ordusu dünyada sülhün qorunmasına böyük töhfələr verib. Çin xalqı daim sülhsevərliyi ilə tanınıb. Çin özünümüdafiə qabiliyyətini ildən-ilə daha da inkişaf etdirir. Çin Silahlı Qüvvələri öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirir, dünyada sülhün möhkəmlənməsi üçün əməli tədbirlər görür.

Azərbaycan-Çin münasibətlərinə toxunan Vanq Lei qeyd edib ki, iki ölkə arasında əlaqələrin tarixi çox qədimdir. Xalqlarımız böyük İpək Yolu vasitəsilə ticarət əlaqələri saxlayıblar. Çin Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olub. İki ölkə arasında 30 illik diplomatik münasibətlər Azərbaycan və Çin liderləri tərəfindən daha da inkişaf etdirilir. Hər iki ölkənin Silahlı Qüvvələri arasında əməkdaşlıq daha da inkişaf edir.

Sonda Çin Silahlı Qüvvələrindən bəhs edən fotosərgiyə baxış olub.

# Hərbi qulluqçularımız Türkiyədə keçirilən kursu müvəffəqiyyətlə bitiriblər





Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu iki qardaş ölkə arasında imzalanmış "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə çərçivəsində "AKINCI silahlı pilotsuz uçuş aparatının istismarı kursu"nda iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyənin Baykar Müdafiə sənayesi şirkətinin təşkilatçılığı ilə Təkirdağ şəhərində yerləşən Çorlu Təlim Uçuş Mərkəzində keçirilən kursun növbəti buraxılış mərasimi olub.

Mərkəzin rəhbəri cənab Halil Akar açılış nitqi ilə mərasim iştirakçılarını salamlayaraq, təlim mərkəzi haqqında geniş məlumat verib və məzunlara öz səmimi arzularını çatdırıb.

Sonda kursu müxtəlif ixtisaslar üzrə müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikat və hədiyyələr təqdim edilib, xatirə şəkli çəkilib.

# Azərbaycan Ordusunda yeni tədris dövrü başlayıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qarşıya qoyduğu tələblərə, müdafiə nazirinin əmr və sərəncamlarına əsasən qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanmasını təmin etmək məqsədilə Azərbaycan Ordusunda təlim-tədris prosesi davam etdirilir.*



2022-ci il üzrə təsdiq edilmiş döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yeni tədris dövrü başlanması ilə əlaqədar mərasimlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə döyüş bayrağı sıra meydanına gətirilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.

Çıxış edənlər müdafiə nazirinin yeni tədris dövrünün başlanması ilə bağlı əmr və tələblərini, Azərbaycan Ordusunun qarşında duran vəzifələri, eləcə də digər məsələləri şəxsi heyətin diqqətinə çatdırıblar.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

Qeyd edək ki, yeni tədris dövrünün başlanması ilə əlaqədar hərbi hissələrin döyüşə hazırolma vəziyyətinin yoxlanması üzrə tədbirlər həyata keçiriləcək. Bölmələr həyəcan siqnalı ilə daimi dislokasiya məntəqələrini tərk edərək təlim mərkəzlərinə və ümumqoşun poliqonlarına hərəkət edəcəklər.

Vətən müharibəsindən, eləcə də müasir döyüş əməliyyatlarından öyrənilən təcrübələrin tətbiq edilməsi ilə keçiriləcək dərslərdə əsas diqqət komanda-idarəetmə və qoşunlar arasında qarşılıqlı əlaqənin təkmilləşdirilməsi, o cümlədən bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəldiləcək.

# Mühəndis bölmələri ilə praktiki məşğələlər keçirilir

*Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının şəxsi heyətinin peşəkarlıq səviyyəsinin daha da artırılması məqsədilə praktiki məşğələlər keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səhra şəraitində keçirilən məşğələlərdə hərbi qulluqçular müasir mina əleyhinə qoruyucu istehkam kostyumları və minaaxtaranların taktiki-texniki xüsusiyyətlərini öyrənir, mina və partlamamış döyüş sursatların aşkar edilərək zərərsizləşdirilməsi üzrə bacarıqlarını təkmilləşdirirlər.



Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələrinin şəxsi heyətinin döyüş hazırlığının artırılması məqsədilə keçirilən məşğələlər davam edir.

## Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edib

Son günlər sosial şəbəkələrdə müxtəlif adlar altında Vətən müharibəsi və təlimlər zamanı Azərbaycan Ordusunun fəaliyyətini, hərbi kolonların, eləcə də döyüş texnikalarının hərəkətini əks etdirən foto və videogörüntülər yeni məlumat kimi paylaşılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, xidməti fəaliyyət ilə bağlı Azərbaycan Ordusunun şəxsi heyəti və döyüş texnikası təlim mərkəzlərinə, ümumqoşun poliqonlarına mütəmadi olaraq hərəkət edir.

"Bir daha sosial şəbəkə istifadəçilərini və əhalini belə köhnə görüntüləri yeni video adı altında yaymamağa və ictimaiyyət arasında çaşqınlıq yaratmamağa çağırırıq.

Vətəndaşlarımıza yalnız öz təsdiqini tapmış və Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində (www.mod.gov.az), həmçinin sosial şəbəkə hesablarında paylaşılan məlumatlara istinad etməyi tövsiyə edirik", - nazirliyin müraciətində qeyd edilib.

# Yüksək döyüş hazırlığı ilə Vətən sevgisinin vəhdəti hər zaman qələbəyə aparır



**(Əvvəli 1-ci səhifədə)**

- Komandirlərimizin sayəsində bilik və təcrübələrimizi artırır, özümüzü təkmilləşdirməyə çalışırıq, - deyə əsgər İlyas Zahirov söhbətə başlayır. "Hər birimiz təlim-məşqlərdə fəallıq göstərir, dərs rəhbərlərinin bizə öyrətdiklərini dərindən mənimsəyirik. Qarşımıza qoyulan tapşırıqları həvəslə və məsuliyyətlə yerinə yetiririk. Komandirlərimizlə birlikdə işğaldan azad olunan ərazilərdə mühəndis təminatı tapşırıqlarında iştirak edirik. O torpaqlara getmək, oraları görmək çox gözəl hissdir. Lakin o torpaqlara yeni nəfəs, firavanlıq gətirmək amalı ilə xidmət etmək mənim qürurumu daha da artırır. Düşünəndə ki, qarşıdakı illərdə doğma torpaqlarımızın həqiqi sakinlərinin öz doğma yurdlarına Böyük Qayıdışı başa çatacaq və o yerlərdə yenə toy-bayram sədaları eşidiləcək, onda bu tarixi uğurda pay sahibi olaraq mən də sevinəcəm".

Növbəti müsahibim əsgər Rəhman Pirverdiyevdir. Xidmətini başa vurmağına sayılı günlər qalan təcrübəli əsgər vurğulayır ki, peşəkarlıqdan əlavə, səbir və intizam da bu ixtisasın vacib şərtlərindəndir. "Real mühitə uyğun olaraq hazırlanmış mühəndis şəhərciyində praktiki vərdişlərin təkmilləşdirilməsi və tapşırıqların icrasının məşq edilməsi üçün hər cür şərait yaradılıb. Bölməmizə yeni gələn hərbi qulluqçuların peşəkarlaşması üçün təşkil olunan praktiki məşğələlər burada keçirilir. Mühəndis təminatı tapşırıqlarının yerinə yetirilməsində tələskənliyə yol verməmək olmaz. Fəaliyyətin səmərəliliyinin təşkili üçün komandirlərimizin rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərdə müxtəlif minalardan təmizlənmə, partlamamış döyüş sursatlarının tapılma və zərərsizləşdirilməsi tapşırıqları icra edilir. Təhlükəsizlik qaydalarına xüsusi diqqət yetirilir. Relyef şərtləri və hava şəraiti nəzərə alınmaqla təminatımızda olan müasir texnikalar vasitəsilə ərazilərin təmizlənməsi işləri görülür ki, bu da bizim minaaxtarma fəaliyyətimizi xeyli yüngülləşdirir".



Digər əsgər Ramil Həsənov da bildirdi ki, qələbənin əldə olunmasında vətənpərvərlik hissinin və yüksək döyüş hazırlığının rolu çox böyükdür. Məhz bu vəhdətin təzahürü idi ki, 44 günlük haqq savaşımızda tarixi torpaqlarımıza və Böyük Qələbəyə aparan yolları təmizləyən qəhrəman istehkamçılarımızın sayəsində o torpağın əsl sahibləri bu gün orada addımlayır. "Komandirlərimiz döyüşün canlı şahidi olmuş təcrübəli hərbçilərdir. Dərs və məşğələlərin səmərəli keçirilməsi üçün hərbi hissəmizdə hər cür şərait yaradılıb. Biz də öz növbəmizdə təlim-məşqlərdə üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirib onlara başucalığı gətirmək üçün daim çalışırıq. Gənc əsgər olaraq ordu sıralarında xidmət etməkdən hər birimiz sevinc və qürur hissi keçiririk. Qalib ordunun əsgəri adını daşıyırıq və bu adı layiqincə doğrultmalıyıq. Artıq torpaqlarımız işğaldan azad olunub və həmin torpaqlarımıza yeni həyat vermək üçün mühəndis təminatını təşkil edir, Vətənə övladlıq borcumuzu ödəyirik".

Əsgərlərin qarşıya qoyulmuş tapşırıqları, normativə uyğun olaraq vaxtlı-vaxtında dəqiqliklə yerinə yetirməsi buradakı mənəvi-psixoloji və döyüş hazırlığın yüksək olmasından xəbər verirdi. Gənc istehkamçılarımızla birlikdə olduğumuz müddət ərzində onların hər birinin fikirlərini öyrəndim və bir daha əmin oldum ki, yüksək döyüş hazırlığı ilə Vətən sevgisinin vəhdəti hər zaman qələbəyə aparır.

**Baş leytenant Fuad CƏFƏROV "Azərbaycan Ordusu"**

# Cəmşid Naxçıvanski adına hərbi liseyin 50 illik yubileyinə həsr edilən Azərbaycan kuboku uğrunda futbol yarışları başa çatıb




*Tarixi günlər unudulmur, yaşadılır, müxtəlif biçimli tədbirlərlə anılaraq anıla düşüncələrə hopur. Mahiyyəti dövlətçiliklə bağlı olan belə tədbirlər tarixin cığırdaşına dönür...*

Son 50 ilin siyasi hadisələrinin mahiyyətində hərbin də çalarları hiss olunub. Sosial-siyasi xarakterli hadisələr deyilsə də, deyilməsə də bu, hərbiyönümlü olub, dövlətçiliyə nə qədər səmərə verdiyi sonralar etiraf edilib.

Dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi təmayüllü məktəb kimi. Məhz Ulu Öndərin qətiyyəti ilə SSRİ hökumətinin bu məktəbin yaradılmasına birmənalı etirazı mükəmməl,



dönməz məntiqlə, ideoloji qüdrətlə dəf edildi. Məktəbə "Qırmızı terror"un qurbanı olan Cəmşid xan Naxçıvanskinin adının verilməsi də cəsarətli, tarixi bir hadisə idi.

Bu məktəbin yaradılması təkcə hərbi təhsil məsələsi deyildi, Azərbaycanın gələcəkdə öz müstəqilliyini bərpa edəcəyinə inamın təntənəsi, uzaqgörən təşəbbüs idi.

Hərbi lisey 50 ildir cəmiyyətin sevgisi, ehtiramıyla əhatələnən təhsil ocağıdır. Ocaq min illərdi Azərbaycan mühitində necə müqəddəs hesab edilibsə, xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı bu hərbi təhsil ocağı da eyni səviyyədə ziyarətgaha çevrilib.

Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılmasının 50 illik yubileyi ölkə miqyasında, yüksək səviyyədə qeyd edilməkdədir.

Müdafiə Nazirliyinin dəstəyi,




Azərbaycan Həvəskarlar Futbol Federasiyasının təşkilatçılığı ilə Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılmasının 50 illiyinə həsr edilmiş futbol üzrə Azərbaycan kuboku uğrunda yarışlarda qalib gəlmək üçün bir neçə komanda gücünü sınayıb.

AZƏRTAC xəbər verir ki, iyulun 30-da ASCO Arenada (Bayıl stadionu) Azərbaycan kuboku uğrunda yarışların final mərhələsinin açılışına həsr olunmuş mərasim keçirilib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin ifasında Dövlət Himni ifa olunub.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani liseyin yaranması zərurətindən, tarixi şəraitdən, məktəbin yetirmələrinin müasir rəşadətli Azərbaycan Ordusunun yaranmasında, formalaşmasında müstəsna xidmətlərindən, məzunların istər Birinci, istərsə də İkinci Qarabağ müharibəsində fəal iştirakından, onların göstərdikləri şücaət və qəhrəmanlıqlardan qürurla danışıb. Bu hərbi məktəbin yaradılmasının 25, 30 və 50 illik yubileylərinə həsr edilən kitabların müəllifi olmasından qürur hissi keçirdiyini bildirib.

Cəmşid Naxçıvanski adına hərbi liseyin sabiq rəisləri, yetirmələri olan generallar, zabitlər dahi liderimiz Heydər Əliyevin əsasını qoyduğu möhtəşəm abidələrdən biri olan bu xüsusi təyinatlı təhsil ocağına göstərilən diqqət və qayğıya görə tədbirin təşkilatçılarına minnətdarlıq ediblər, "Belə bir tədbir liseyin timsalında qalib Azərbaycan Ordusuna sevgidir", - deyiblər.

Cəmşid Naxçıvanski adına hərbi liseyin ilk məzunlarından biri olan Azərbaycan Həvəskarlar Futbol Federasiyasının yaradıcısı və prezidenti, ehtiyatda olan polkovnik Rüfət Əmirov göstərilən dəstəyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq edib.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Bəkir Orucov belə tədbirlərin Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, çağırışçıların, eləcə də yeniyetmələrin vətənpərvərlik və fiziki tərbiyəsində, iradi





keyfiyyətlərin aşılanmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Hərbi liseyin məzunları olan Silahlı Qüvvələr veteranları və qonaqları final yarışının iştirakçılarına uğurlar arzulayıblar.



Məzunlara və qonaqlara Abdulla Qurbaninin "Böyük gələcəyə baxış" adlı yubiley nəşri hədiyyə edilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və incəsənət ustalarının ifa etdikləri vətənpərvərlik mahnıları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Cəmşid Naxçıvanski adına hərbi liseyin kursantlarının hərbi orkestrin müşayiəti ilə ifa etdikləri "Naxçıvanskilər marşı" tədbir iştirakçılarının böyük marağına səbəb olub.

Əsaslı təmirdən sonra "ASCO Arena"da ilk dəfə olaraq "Gənclər" (Bakı) və "City Baku" (Bakı) komandaları Azərbaycan kuboku uğrunda qalib gəlmək üçün yaşıl meydançaya çıxıb.

Maraqla izlənilən finalda hər iki komanda Cəmşid Naxçıvanski adına hərbi liseyin 50 illik yubileyinə həsr edilən yarışın kubokunu qazanmaq üçün gərgin mübarizə aparıblar. "Gənclər" komandası 6:1 hesabı ilə qalib gəlib.

Hər iki komanda Müdafiə Nazirliyinin təsis etdiyi medal və diplomlar, Cəmşid Naxçıvanski adına hərbi liseyin xüsusi hədiyyələri, Azərbaycan Həvəskarlar Futbol Federasiyasının medal və diplomları ilə təltif edilib. Qalib komandaya kubok təqdim olunub.

Cəmşid Naxşıvanski adına hərbi liseyin 50 illik yubileyinə həsr olunan Azərbaycan kuboku uğrunda futbol yarışları hərbi orkestrin ifa etdiyi "Qələbə marşı"nın sədaları altında başa çatıb.

## Məişət

# “Göstərilən diqqətdən ruhlanaraq nümunəvi xidmət etməyə can atırıq”



Əsgərlərin mənəvi-psixoloji durumu döyüş hazırlığını şərtləndirən ən mühüm amillərdəndir. Belə ki, yüksək əhval-ruhiyyədə xidmət edən şəxsi heyət keçirilən dərslərdə, təlim-məşqlərdə həvəslə iştirak edir, hərbi bilikləri daha yaxşı mənimsəyir. Müasir dövrdə də Azərbaycan əsgərinə göstərilən diqqət və qayğı, yaradılan yüksək məişət şəraiti onların ruh yüksəkliyi ilə xidmət etmələrinə zəmin yaradır. Danılmaz faktdır ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı hər an əsgərlərin üzərindədir. Nəticədə onların məişət şəraiti yüksək səviyyəyə çatdırılıb, hərbi hissələrimizdə yeni yeməkxanalar, yataqxanalar, hamam-camaşırxanalar şəxsi heyətin istifadəsinə verilib. Onu da vurğulayım ki, artıq işğaldan azad olunmuş ərazilərimizdə dislokasiya olunan hərbi hissələrdə də ürəkaçan şərait qurulub. Bir neçə yeni hərbi hissə, hospital, xidməti binalar istifadəyə verilib. Hazırda sərhədlərimizin keşiyində dayanan igidlərimizin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində işlər səngimədən davam edir.

Deyilən faktların hər addımda şahidi olduq. Bu yaxınlarda hərbi hissələrimizdən birində olarkən, onun ərazisi, xidməti binaları ilə tanışlığın son ünvanı əsgər yataqxanası oldu.

Əsgərlər burada asudə vaxtlarında sinif otağında qəzet və jurnal oxuyur, məişət otağında sabahkı günə hazırlaşırdılar. Söhbətləşdiyim əsgərlər isə yataq otağının səliqə-sahmanı ilə məşğul olurdular. Otaqdakı birmərtəbəli çarpayılar, pambıq yataq dəstləri, yaylı döşəklər, tərtəmiz dəsmallar və digər lazımi əşyalar onların sosial-məişət şəraitinin və təminatlarının yüksək olduğunu göstərirdi.

Əsgərlər Rövşən Həsənov və Elnur Ağayevlə salamlaşdım. Rövşən dedi ki, belə yüksək şəraitdə xidmət etmək döyüş qabiliyyətimizə müsbət təsir edir. "Göstərilən diqqətdən ruhlanaraq nümunəvi xidmət etməyə can atırıq. Hər birimiz hərbi hissədə yaradılan şəraitdən çox razıyıq. Bütün təminatlarımız qaydasındadır. Bizə göstərilən yüksək qayğıya görə Ali Baş Komandanımıza, ordumuzun rəhbərliyinə dərin təşəkkürümüzü bildiririk".

Əsgər Elnur Ağayev isə düşüncələrini belə ifadə etdi. "Təminatımızın yüksək olması bütün çətinlikləri bizdən uzaq tutur. Qidalanmağımız,





geyimimiz, istirahətimiz, asudə vaxtlarımızın təşkili yüksək səviyyədədir. Üzərimizə təkcə bir vəzifə düşür - nümunəvi xidmət etmək, komandirlərimizin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirmək, Azərbaycan Ordusuna layiqli əsgər olmaq".

Əsgərlərə xidmətlərində uğurlar arzulayıb yataqxanadan ayrıldım. Bölüyün baş çavuşu baş gizir Asəf Həsənovla birlikdə yataqxananın digər otaqları ilə tanış oldum. İçəridə yataq otaqları ilə yanaşı, müasir avadanlıqlarla təchiz olunmuş trenajor otağının, ideoloji sinifin, məişət otağının, saxlancın və digər otaqların da olduğunu gördük. Asəf yüksək şəraitlə bərabər şəxsi heyətin əşya-əmlakla da tam şəkildə təmin olunduğunu bildirdi. "Burada hər bir əsgər bütün lazımi ləvazimatlarla təmin olunub və qayğı ilə əhatələnib. Yataq camaşırları, əl-ayaq dəsmalları, paltarları vaxtı-vaxtında yuyulur. Həftəlik olaraq bütün camaşırlar saxlancda yığılan təmizləri ilə əvəz olunur. Təmizliyə, səliqə-sahmana, şəxsi heyətin gigiyenasına ciddi nəzarət edilir. Bundan başqa hərbi hissəmizdə müasir avadanlıqlarla təchiz olunan yeməkxana, camaşırxana, qazanxana, tibb məntəqəsi də fəaliyyət göstərir ki, bu da şəxsi heyətin sosial-məişət şəraitinin yüksək olmasının bariz nümunəsidir. Yaxşı şəraitlə, diqqət və qayğıyla əhatə olunan gənclər də yüksək əhval-ruhiyyədə xidmət edir, bacarıqlı əsgərlər kimi formalaşırlar", - baş gizir Asəf Həsənov dedi.

Bu gün bir daha şahidi oldum ki, əsgərlərimizin sosial-məişət şəraitinin, təminatlarının ən yüksək səviyyəyə çatdırılması işi dövlətimiz tərəfindən daim diqqətdə saxlanılır. Yaradılan belə ürəkaçan şərait isə əsgərlərə sağlam mənəvi-psixoloji ruh aşılayaraq, onların döyüş əzmini daha da artırır.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

## Gənc zabitlərimiz

# “Döyüşlərdə sıradan çıxmış texnikalar qısa müddət ərzində təmir olunurdu”

***Vətən müharibəsində qələbənin qazanılmasında gənc zabitlərimizin də göstərdikləri igidlik və qəhrəmanlıq nümunələri danılmazdır. Bu oğullar döyüşlərdən doğmalarının yanına qələbə ilə qayıtdılar. Belə zabitlərdən biri də bu gün xidmətini uğurla davam etdirən baş leytenant Elmar Cəlilovdur. Gənc zabit Vətən müharibəsinin ilk günlərindən sonadək döyüşlərdə iştirak edib. Yurdumuzun azadlığı naminə hərbçi kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlib.***




Baş leytenant Elmar Cəlilov haqqında hərbi hissədə xoş sözlər eşitdik. Zabit Aqil İsmayılov onun xidmətindən söz açaraq bacarıqlı, peşəkar hərbçilərdən biri olduğunu dedi. Hər zaman ona verilən əmr və tapşırıqları bacarıqla yerinə yetirdiyini və texnikaların daim işlək vəziyyətdə olmasını diqqət mərkəzində saxladığını bildirdi.

Gənc zabitimiz Elmar Cəlilov Masallı rayonunda dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət İqtisadiyyat Universitetinə qəbul olub. Ali təhsilini başa vurduqdan sonra övladlıq borcunu yerinə yetirmək üçün ordu sıralarına yollanıb. Xidmət müddətində hərbi sirləri dərindən öyrənib, hərbi bilikləri mənimsədikcə ordu həyatına sevgi və məhəbbəti daha da artıb. Müddətli xidmətini uğurla başa vurub və 2016-cı ildə ömrünü hərbiyə bağlamaq məqsədilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı kursu"nu uğurla bitirərək, "N" hərbi hissəsində xidmətə başlayıb. Vətən müharibəsi başlayanda o da komandanlığın əmri ilə üzərinə düşən tapşırıqları yerinə yetirmək üçün döyüşlər gedən əraziyə ezam olunur.

Həmin gərgin və şərəfli günləri xatırlayan baş leytenant Elmar Cəlilov dedi:

- Hərbçi kimi üzərimizə düşən ən başlıca vəzifə yurdumuzu qəsbkarlardan azad etmək idi. Biz buna həmişə hazır idik. Atəşkəs rejiminin tez-tez pozulması günlərin birində torpaqlarımızın azadlığı uğrunda döyüşlərin başlayacağından xəbər verirdi. Həmin gün yetişmişdi. Torpaqlarımızın azadlığı uğrunda mübarizə - Vətən müharibəsi başladı. Döyüşlərin elə ilk anlarından komandanlıq bizə ordunu zəruri əşya və avadanlıqlarla, texnika ilə təmin etmək tapşırığını verdi. Əmri yerinə yetirmək üçün vaxt itirmədən cəbhə xəttinə yola düşdük. Döyüş yolumuz Cəbrayıl və Füzuli istiqamətindən başladı. Olduqca gərgin döyüşlər gedirdi. Atəş səslərindən yer-göy lərzəyə gəlmişdi. İlk dəfə idi ki, belə səhnələr görürdüm. Ordumuz düşmənin istehkamını dağıtmış və əks-hücum əməliyyatlarına başlamışdı. Biz də üzərimizə düşən tapşırıqları yerinə yetirmək üçün əlimizdən gələni əsirgəmirdik. Mütəxəssislərin köməkliyi ilə sıradan çıxan texnikaları qısa müddət ərzində təmir edib hərbçilərimizin istifadəsinə verirdik. Ordumuzun ilk uğurları, zəfərləri yurdumuzun işğaldan azad olunacağına inamımızı daha da artırırdı. Füzuli və Cəbrayıl istiqamətindən başlanan döyüş yolumuzu Qubadlı və Xocavənd rayonlarında da uğurla davam etdirdik. Hadrut qəsəbəsinin azad olunması uğrunda aparılan hərbi əməliyyatlar ən gərgin döyüşlərdən biri kimi yaddaşımdan silinməyəcək. Biz bu istiqamətdə də təkcə öz texnikalarımızla deyil, ermənilərdən qənimət kimi götürülmüş texnikaları da cəlb edərək daim irəli gedirdik. Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində qarşımıza qoyulan bütün döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldik. İkinci Qarabağ müharibəsindən zəfərlə qayıtdığımıza görə hamımız qürurluyuq. Bu gün də hərbi xidmətimizi uğurla davam etdirir, müstəqilliyimizin, ərazi bütövlüyümüzün əbədi-əzəli olması üçün üzərimizə düşən bütün döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirməyə çalışırıq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Hərbi etikanın əsasları. Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlər, bölmədə sağlam əhval-ruhiyyənin yaranmasında kollektivin rolu.

**Suallar:**
**1. Hərbi etikanın əsasları.**
**2. Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları.**

### Hərbi etikanın əsasları

Etika qədim yunan dilində "şəxsin əxlaqi baxımdan adət və xasiyyəti" mənasını ifadə edən "etnos" kəlməsindən törəmişdir. Etikanın əsas mövzusu əxlaq anlayışıdır. Etika insanların həm ayrı-ayrı fərdlərlə, həm də ictimaiyyətlə münasibətlərin təməlini təşkil edən dəyərlər, normalar, qaydalar, səhv-düz və ya yaxşı-pis kimi xüsusiyyətləri əxlaqi baxımdan öyrənən fəlsəfi nizamdır. Etika faydalı, yaxşı, pis, doğru və yanlış kimi məfhumları tətbiq edən fərdi və ya qrup davranış və münasibətlərində nəyin məqbul, nəyin qeyri-məqbul olduğunu müəyyən edən əxlaqi tezislər, dəyərlər və standartlar sistemidir.

Əxlaqi münasibətlər ictimai münasibətlər sistemində mühüm yer tutur ki, bunlar da əxlaq haqqında elm olan "etika" tərəfindən öyrənilir. Əxlaqın məkanı - insanlar arasındakı münasibətlərdir. İnsanın güclü və ağıllı olmasını müəyyən etmək üçün onu digər insanlarla müqayisə etmək vacib deyil, çünki bu, fərdin özünəxas xüsusiyyətləridir. Lakin insanın nə dərəcədə xeyirxah, əliaçıq, mehriban olmasını və bu kimi digər xüsusiyyətlərinin şahidi olmaq üçün onu məhz başqaları ilə ünsiyyət prosesində görmək zəruridir.

İnsani əxlaq şüurla birgə doğulmur. O, əxlaq normalarını və davranış qaydalarını tədricən mənimsəyir. Bu normalar və qaydalar müəyyən vaxtdan sonra onun fərdi şüurunda özünə yer tapır ki, bu da "yaxşını pisdən" ayırmağa kömək edir. İnsan çox vaxt hətta öz istəyinin əksinə gedərək, ictimai rəyi nəzərə alıb, hamı tərəfindən qəbul edilmiş davranış qaydalarına və əxlaq normalarına uyğun hərəkət etməli olur. Çünki cəmiyyətdə yaşayan insan ondan təcrid oluna bilməz. O, bu və ya digər mənada cəmiyyət qanunlarına tabe olmaq məcburiyyətində qalır. Çox vaxt, əsasən, "öz ürəyinin hökmü ilə" hərəkət edən insan cəmiyyət və ayrı-ayrı şəxslər qarşısındakı borc və vicdan hisslərinin təhriki ilə hər hansı addımı atır və bu zaman özü də hiss etmədən ictimai mənafe şəxsi mənafedən üstün tutulur. Belə olmasaydı, nə maddi-mənəvi nemətlər istehsal oluna bilər, nə də insan cəmiyyəti mövcud ola bilərdi.

Peşə etikası insanların peşə fəaliyyəti ilə əlaqədar aralarındakı münasibətlərin mənəvi xarakterini təmin edən davranış kodeksidir. Bir çox əxlaq normalarının ümumbəşəri xarakter daşımasına baxmayaraq müxtəlif peşələrlə əlaqədar fəaliyyət növlərinin də özünəməxsus davranış normaları var. Etikanın əlaqədar fəaliyyət növlərindən biri də hərbi etikadır (hərbi-etik normalar).

Müdafiə nazirinin müvafiq qərarı ilə təsdiq edilmiş "Azərbaycan Ordusunun hərbi qulluqçularının etik davranış qaydaları" haqqında Əsasnamədə hərbi qulluqçular üçün etik davranış qaydaları, prinsipləri və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmlər müəyyən edilmişdir.

Hərbi xidmət - insanlardan yüksək intizam, icraçılıq, dəqiqlik, təmkinlilik, dözümlülük və çeviklik tələb edən fəaliyyət sahəsidir. Hərbi qulluqçuların xidməti fəaliyyət və ondan kənar vəziyyət şəraitində davranış, müvafiq hərəkət və hadisələrə düzgün reaksiya vermə qabiliyyətini formalaşdıran əxlaqi normalar öz əksini hüquqi sənədlərdə, qanunlarda, nizamnamələrdə, təlimatlarda, komandirlərin əmrlərində tapır. Buna görə əxlaqi tələblər qanun qüvvəsinə minir. Məsələn, qorxaqlıq cəmiyyətdə insanın psixoloji durumunun keyfiyyət göstəricisi kimi yalnız mənəvi baxımdan pislənirsə, hərbi kollektivdə aşkar edilən qorxaqlıq isə çətin məqamda döyüş tapşırığının uğurla yerinə yetirilməsinə mane olan zərərli və təhlükəli bir amil kimi aradan qaldırılmalıdır.

Odur ki, hərbi qulluqçuların qarşısında həmişə hərbi-etik normalardan irəli gələn yüksək tələblər qoyulur. Bununla belə, əxlaq qanunlara, nizamnamələrə kor-koranə tabe etdirilmir. Əksinə, Azərbaycan Ordusunda hərbi xidməti tənzimləyən bütün hüquqi sənədlər, o cümlədən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət, İntizam, Qarnizon və Qarovul Xidmətləri və Sıra nizamnamələri Vətən qarşısında borcun yerinə yetirilməsində könüllülüyün, şüurluluğun, təşəbbüskarlığın vacibliyini vurğulayır. Hərbi xidmətə çağırılan hər kəs Vətənimiz Azərbaycana sadiq olacağına, hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirəcəyinə, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağına təntənəli surətdə and içir.

Hərbi borcunu daim nümunəvi yerinə yetirən hər bir bacarıqlı döyüşçü yüksək mənəviyyata malikdir. Hərbi borcu həm də ləyaqətlə yerinə yetirmək hərbçinin şərəf işidir. Öz vəzifəsinə layiqincə yanaşmaq hərbi qulluqçulardan bəzən böyük çətinlikləri dəf etməyi tələb edir. Hərbi kollektivin uğuru onun hər bir üzvünün fəaliyyətindən asılıdır. Əgər hamı öz vəzifəsinə Hərbi andın, nizamnamələrin tələblərinə uyğun yanaşırsa, deməli nailiyyət labüddür.

Hərbi etikanın vacib normalarından biri hərbi kollektivdə böyüyə hörmət etmək, subardinasiya qaydalarına riayət etməkdir. Vəzifəcə və rütbəcə kiçik olanlar rəisləri nizamnaməyə uyğun olaraq əsgəri qaydada birinci salamlayır və onlara rütbələri ilə müraciət edirlər.

Hərbi qulluqçu öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində və peşəkarlıq səviyyəsində yerinə yetirməyə borcludur. Hərbi qulluqçular öz aralarında da nəzakətli olmalı, bir-birinə "siz" deyə müraciət etməlidirlər. Bu qayda rəislərə də, onların tabeliyində olanlara da eyni dərəcədə şamil edilir. Hərbi qulluqçu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı komandiri (rəisi) ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbrli olmalıdır.

Hərbi qulluqçu xidməti vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə hərbi xidmətin nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. O, Azərbaycan Respublikasının, hərbi xidmətin və hərbi qulluqçunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa borcludur.

Azərbaycan zabiti və əsgəri adını daşıyan hər kəs öz yüksək mədəniyyəti, nəzakəti, təvazökarlığı ilə nümunə olmalıdır. İctimai yerlərdə, nəqliyyatda hərbi qulluqçu rütbəcə böyük olan zabiti, rəisi salamlamalı və ona hörmət etməlidir.

Hərbçilər mülki əhaliyə qarşı da nəzakətli davranmalı, Azərbaycan zabiti və ya əsgəri adını uca tutmalı, bu şərəfli ada ləkə gətirməməlidirlər. Bədbəxt hadisələr zamanı biganə qalmamalı və bacardıqları köməyi göstərməlidirlər. Hər bir döyüşçü səliqəli geyinməli, əlini cibində saxlamamalı, rəisinin və ya komandirinin yanında qeyri-etik hərəkətlərə yol verməməlidir.

Hərbi qulluqçunun mənəvi simasını göstərən cəhətlərdən biri də onun danışığıdır. Ünsiyyət zamanı aydın, səlis və inandırıcı sözlərə üstünlük vermək lazımdır.

### Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları

Kollektiv insanların şüurlu şəkildə toplanmış birliyi və ictimai fəaliyyətin yerinə yetirilməsi üçün birgə fəaliyyətidir. Kollektiv insanlar arasında münasibət formalarına və fəaliyyətin xarakterinə görə fərqlənir. Bu birgə insan fəaliyyəti içərisində hərbi kollektiv xüsusi yer tutur.

Hərbi kollektiv - ölkənin və onun sərhədlərini xarici təcavüzdən silahli müdafiəsini təmin etmək üçün vahid komandanlıq prinsipi əsasında toplanmış hərbçilərin sarsılmaz birliyidir. Azərbaycan Ordusu, qoşun birləşmələri - korpus, briqada, tabor, bölük, taqım hərbi kollektivlərdir. Azərbaycan Ordusunda ilk kollektivlər taqım və bölüklərdir. Burada hərbçilər bir-biri ilə fasiləsiz iş, məişət və digər əlaqədədirlər. Hərbi kollektivdə şəxslərarası münasibətlər mühüm rol oynayır. Şəxslərarası münasibətlər dedikdə, gündəlik ünsiyyət prosesində, müxtəlif tapşırıqların yerinə yetirilməsi gedişində, xidmət və istirahət vaxtı kollektivin üzvləri arasında yaranan münasibətlərin müxtəlif forma və növləri nəzərdə tutulur.

Hərbi kollektivdə mövcud olan qarşılıqlı münasibətlər - hərbi qulluqçuların həyatında, hərbi xidmətində ünsiyyət zamanı yaranan münasibətlər sistemidir. Onlar arasındakı münasibətlər həm cəmiyyətdə işləyən qanunlar, həm də qanun qüvvəsində olan hərbi nizamnamələr vasitəsilə tənzimlənir. Hərbi xidmətə çağırılan hər bir kəs ordu kollektivinin bir üzvünə çevrilir və silahdaşları ilə nizamnamələrin tənzimlədiyi ictimai və qarşılıqlı münasibətlərə girir. Hərbi nizamnamələr ordunun xüsusiyyətini və qarşısında duran vəzifələri nəzərə almaqla hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin prinsiplərini müəyyən edir və onlarda döyüş yoldaşlığını uca tutmağı, sözdə və əməldə silahdaşlarına kömək etməyi, onları nalayiq hərəkətlərdən çəkindirməyi tərbiyə edir.

Qanunlarda qarşılıqlı münasibətlərin əsas prinsipləri belə ifadə olunur: vahid komandanlıq; subardinasiya münasibətləri (kiçik vəzifəlinin böyük vəzifəliyə tabe olması); hərbi yoldaşlıq, dostluq və kollektivçilik münasibətləri; hərbi nəzakət, şərəf və ləyaqət prinsipləri; ədalətlilik prinsipi; humanistlik (insansevərlik) prinsipi və digərləri.

Bu prinsiplər həm xidməti (rəsmi), həm də qeyri-xidməti (qeyri-formal) qarşılıqlı münasibətlərin hüquqi və mənəvi-əxlaqı əsasını təşkil edir. Xidməti münasibətlər, hərbi qulluqçular funksional vəzifələrini, yəni döyüş növbətçiliyi, qarovul və daxili xidmət, təlim-döyüş və digər xidməti tapşırıqları yerinə yetirərkən özünü büruzə verir. Qeyri-formal münasibətlər isə hərbi qulluqçuların şəxsi əlaqələrində, ilk növbədə məişət mühitində, istirahət və asudə vaxtı qurularaq inkişaf edir. Burada hər bir hərbçinin fərdi-psixoloji xüsusiyyətləri mühüm rol oynayır.

Qarşılıqlı münasibətlərin ən geniş yayılmış növü yoldaşlıq münasibətləridir. Onlar bir qayda olaraq xidməti - işgüzar əlaqələr üzərində qurulur. Burada birgə fəaliyyətin və ünsiyyətin məqsəd, vasitə və nəticələri əlaqələrin inkişafını müəyyən edir və ümumi funksiyaları bölüşdürür. Buna görə də hərbi qulluqçular arasında bir-birlərinə yoldaş deyərək müraciət edirlər.

Hərbi qulluqçular arasındakı münasibətlərin daha bir növü qarşılıqlı anlaşma və kömək üzərində qurulan dostluqdur. O başqa bir insana olan xoş münasibətdən (rəğbətdən), ona olan hörmətdən başlayır. Əgər rəğbət bir qayda olaraq emosiyalara və hissiyyata əsaslanırsa, onda hörmət digər şəxsin yüksək mənəvi keyfiyyətlərinin tanınması deməkdir. Döyüş yoldaşlığı münasibətləri isə xüsusilə dəyərlidir. Onu əsgəri qardaşlıq da adlandırırlar. Döyüşlərdə iştirak etmiş hərbi qulluqçular arasında döyüş yoldaşlığı, "qardaşlığı" xüsusilə aydın görünür. Birinci Qarabağ, Vətən müharibəsi iştirakçıları döyüş yoldaşlarının, bir yerdə döyüşlərdə iştirak etdikləri, demək olar ki, doğmalaşdıqları xidmət yoldaşlarının xatirəsinə böyük hörmətlə yanaşırlar.

Hərbi kollektivdə həmrəylik xeyli dərəcədə həm də kollektiv əhval-ruhiyyədən asılıdır. O, hansısa bir hadisə ilə əlaqədar ümumi sevinc hissi, inam və nikbinlik, bəzən əksinə ruh düşgünlüyü, pessimizm, inamsızlıq, müharibə vaxtı isə - təşviş formasında təzahur edir. Kollektivdə ən arzuolunan əhval-ruhiyyə həyatsevərlik və nikbinlikdir.

Hərbi kollektivdəki mənəvi-psixoloji mühitin köməyi ilə bütün kollektivin fəaliyyəti realizə olunur. Mənəvi-psixoloji mühitin xarakterindən asılı olaraq onun kollektivin üzvlərinə təsir qüvvəsi də müxtəlif cür olacaqdır. Yüksək mənəvi-psixoloji mühit kollektiv üzvlərinin əhval-ruhiyyəsinin yüksəldilməsinə kömək edir, gümrahlığını, inamını, təşəbbüskarlğını artırır.

Hərbi-etik davranış xüsusiyyətləri hərbi xidmət nizamnamələrində öz əksini geniş şəkildə tapmışdır və həmin normalar zabitlərimiz üçün qarşılıqlı münasibətlərin tənzimlənməsinə, ordu kollektivində möhkəm hərbi intizamın təşəkkül tapmasına xidmət edən yararlı istifadə mənbəyidir.

Azərbaycanda ordu quruculuğu dövlət səviyyəsində, dövlətin yaxından iştirakı və qayğısı ilə aparılmaqdadır. Bu iş şəxsən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və nəzarəti altında həyata keçirilir. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirərək yüksək mənəviyyata malik olması, Hərbi andın, nizamnamələrin tələblərinə uyğun yanaşmaqla bölmədə sağlam əhval-ruhiyyəni yaradaraq Azərbaycan Ordusunun inkişafının yeni bir səviyyəsinə yüksəldəcək.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Tarix yazan oğullar*

# Vətən məhəbbəti, dost sədaqəti və yaşadılan dəyərlər

Bu vətənə can verərək,
Bir ölür, min dirilirik.
Şəhid libasın geyərək,
Bir ölür, min dirilirik.

Babək rayonu, Şəkərabad kəndi. Şəhid baş leytenant Telmanlı Allahyarın evi. Otağın divarlarını şəhid şəkilləri bəzəyir. Vətən müharibəsində göstərdiyi şücaətə görə aldığı "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medallar və 3-cü dərəcəli "Rəşadət" ordeni bir döyüşçü haqqında ilkin təəssürat yaradır.

Şəkillərdən ibarət düzəlmiş guşənin önündəki masada müharibənin vurduğu mənəvi və fiziki yaraları cismində daşıyan bir gənc əyləşib. Qucağında 5 aylıq körpəsi ilə. Yusif Məmmədov əslən Naxçıvanın Şərur rayonundan olsa da, Bakıda yaşayır. Dostu həyatda olmasa belə, ailəsinə təsəlli, onların yanında olmağı özünə mənəvi borc bilir. Onunla həmsöhbət olmağa çalışıram. Baxışlarına dərin bir kədər çökmüş gəncin danışmaqla o qədər də arası yoxdur. Onlar sözlərini hərb meydanında deyərlər. Yusif də sözünü Aprel döyüşlərində deyib. Sağ ayağını döyüş meydanında itirib. Çox yormaq istəmirəm. Xatirə şəkli çəkdirməyimizi rica edirəm. Biz qəhrəmanlarımızı tanıtmalıyıq. Tanıtmalı və təbliğ etməliyik ki, gənc və gələcək nəsillər bayağı musiqiləri ilə "gündəmə" gələn müğənnilərdən, anlamsız videoları ilə "məşhurlaşan" tiktokerlərdən deyil, belə qəhrəmanlarımızdan örnək götürsünlər. Vətən uğrunda canını fəda etməyə hazır olan, milli-mənəvi dəyərləri yaşadan, əsl Azərbaycan kişisi olaraq gələcəyə xidmət edən, hər əməli ilə düşmənə meydan oxuyan gənclərdən olsunlar.

Yusiflə Allahyar Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi liseydə təhsil alıb, kursant yoldaşı olublar. O vaxtdan dostluqlarının təməli qoyulub. 2010-2014-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bir taqımda təhsil alıblar. Məqsəd, məram olaraq Vətənə xidməti həyat amallarına çevirib, bu yolda birgə addımlayıblar. Xidmət yerləri ayrı olsa da, Vətənin keşiyini çəkərək dağlarda bərkiyən bu igidlər dostluq tellərini də bərkidiblər. Dağların zirvəsində düşmənə sədd çəkmək, yayın istisi, qışın soyuğuna rəğmən ev rahatlığından uzaqda yaşamaq və müqəddəs amallara xidmət etmək hərbçiyə xasdır. Vətəni qoruyan hərbçilər ölümlə üz-üzə dayandıqları halda belə, yalnız özlərini düşünməz, həm də bir-birlərini qoruyarlar. Yeri gələndə yoldaşına xətər toxunmasın deyə sinəsini güllənin qabağına verən nə qədər nümunə igidlərimiz var.

Bizi qələbəyə aparan, ordumuzun gücünü göstərən, Böyük Qələbəmizin başlanğıcı olan Aprel döyüşləri barədə dəfələrlə yazılıb. Allahyar Telmanlı da bu döyüşlərin fəal iştirakçısı olur. Tapqaraqoyunlu və Talış kəndləri istiqamətində gedən döyüşlərdə düşmənə qarşı amansız mübarizə bu iki gəncin yolunu yenidən birləşdirir. Leytenant Yusif Məmmədov bu döyüşlərdə ağır yaralanır. Son ana qədər döyüşən Telmanlı Allahyar isə şəhid olmuş yoldaşını döyüş meydanından çıxarmaq istəyərkən snayperlə vurulur.



Müalicəsi başa çatdıqdan sonra Allahyar Telmanlı yenidən xidmətinə qayıdır. Bu döyüşlərdə göstərdiyi şücaətə görə o, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilir. Yusif Məmmədov isə sağlamlığı ilə əlaqədar ordudan tərxis olunur.

Və beləliklə, zaman 2020-yə gəlib çatır. Füzulidən Hadruta qədər şərəfli döyüş yolu keçən baş leytenant Allahyar Telmanlı düşmənin şəxsi heyətinin, texnikasının darmadağın edilməsində böyük xidmətlər göstərir, yaralanmasına baxmayaraq döyüşə davam edir. Hadrut istiqamətində gedən gərgin döyüşlərdə düşmənin növbəti gülləsinə tuş gələn gənc zabit şəhadətə qovuşur.

Dost itkisi ağırdır. Yusif igid dostu ilə fəxr etsə də, onun itkisi ilə heç cürə barışa bilmir. Bu itkidən iki il sonra dünyaya gələn ilk oğul övladına Allahyarın adını verir. Allahyar bu körpənin cismində sanki yenidən doğulur. Həm Yusifə, həm də Allahyarın ailəsinə Tanrının ərməğanı - bir dünya sevinc payı nəsib olur. Bir türk poeziya nümunəsində deyildiyi kimi:

Dastan yazar ürəyimiz,
Bükülməz biləyimiz,
Ya şəhidiz ya qaziyiz,
Bir ölür min diriliriz.

Balaca Allahyar atasının Vətən övladlarının, dostu Allahyarın qəhrəmanlıqları ilə bağlı dastanını dinləyərək, Qarabağın necə azad olunduğunu öyrənərək böyüyəcək, atası ilə fəxr edəcək, bir qəhrəmanın adını daşıdığı üçün qürur duyacaqdır. Sıradan bir ad deyil, sıradan bir addım deyil. Bu Vətənə məhəbbət yolunda addımlayan gənclərin birləşən yolu, bir dostun sədaqətidir. Eyni zamanda, dostluq kimi məsuliyyətli bir məfhuma yanaşmanın, Vətən uğrunda canını verən igidin əməlinə və isminə sayğının, bir sözlə, mənəvi dəyərlərin yaşadılmasıdır. Eşq olsun, belə gənclərimizə. Biz məhz sizin kimi mənəvi dəyərlərə sadiq, Vətənə bağlı, nümunəvi davranışı ilə örnək olan gənclərimizi tanıyacaq, tanıdacaq və qürur duyacağıq. Vətən belə gənclərin çiynində parlaq gələcəyə yolçu olacaqdır!

Bir xalq o zaman məhvə məhkum olur ki, o mənəvi cəhətdən tükənir, bitir. Vətən müharibəsində üç minə yaxın şəhid verən xalqımız qazanılan zəfərə, bu yolda canını fəda edən şəhidlərimizə, sağlamlığını itirən qazilərimizə, igid döyüşçülərimizə böyük sayğı duyur, ehtiram göstərir. Son iki ildə doğulan neçə-neçə körpə bu cür igidlərimizin adını daşıyır. Balaca Allahyar kimi. Balaca Allahyarlar yüksək zirvəyə-şəhadətə yüksəlmiş igidlərimizin yerdəki, aramızdakı davamçılarıdır. Vətənpərvərlik, qəhrəmanlıq, birlik kimi dəyərləri yaşadan xalq məğlubedilməzdir!

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin təhlükəsizlik qüvvələri daha bir təhlükəli terrorçunu zərərsizləşdirib



Türkiyənin təhlükəsizlik qüvvələri daha bir uğurlu antiterror əməliyyatı keçirib.

Aparılan əməliyyat nəticəsində "Berxvedan Muş" ləqəbli təhlükəli terrorçu Armanı zərərsizləşdirilib.

PKK sıralarındakı fəaliyyətinə görə 2012-ci ildə Türkiyədə həbs olunan "Berxvedan Muş" qısa müddət sonra sərbəst buraxılıb və 2013-cü ildə yenidən PKK-YPG terror təşkilatlarının sırasına daxil olub. Bir sıra ağır terror cinayətlərində ittiham olunan "Berxvedan Muş" 2019-cu ildən başlayaraq Suriyanın Aynularab bölgəsində terror təşkilatının tunelqazma kimi qanunsuz işlərinə rəhbərlik edib.

## Serbiya-Kosovo sərhədində gərginlik yenidən artıb



Kosovo hökumətinin bu ölkədəki serblərə qarşı yeni qaydalar tətbiq etməsi bölgədə gərginliyin yenidən artmasına səbəb olub.

Yeni qaydalara əsasən, avqustun 1-dən etibarən Serbiyaya məxsus şəxsiyyət vəsiqəsi və pasportları ilə olanların Kosovoya giriş qadağan olunur. Kosovoya daxil olan serblərə 90 gün qüvvədə olan icazə sənədi veriləcək.

Kosovo serbləri bu qaydalara etiraz əlaməti olaraq ölkənin şimalında Serbiya ilə sərhədə gedən yolu avtomobillərlə bağlayıblar, yollarda barrikadalar qurulub. Kosovo polisi isə Brnyak və Yarinye sərhəd-keçid məntəqələrini bağlayıb. Kosovo mətbuatı bəzi yerlərdə atəş səslərinin eşidildiyini, əsasən polis qüvvələrinin hədəf alındığını, lakin xəsarət alan olmadığını yazıb. Alban əsilli vətəndaşların da hücuma məruz qaldığı, onların nəqliyyat vasitələrinə xəsarət yetirildiyi bildirilib.

Serbiyanın Müdafiə Nazirliyi ordunun ölkənin inzibati sərhədini keçmədiyini açıqlayıb. Bildirilib ki, bəzi media resurslarında Serbiya Ordusu ilə Kosovo polisi arasında gərginliyin yaşandığına dair yayılan məlumatlar dezinformasiyadır.

Serbiya Prezidenti Aleksandr Vuçiç isə Kosovo serblərinin belə zülmə dözməyəcəklərini deyib. O, ölkəsinin münaqişələrə səbəb olan və münaqişə istəyən tərəf olmadığını da vurğulayıb.

Qeyd edək ki, Serbiya-Kosovo münasibətlərinin normallaşdırılması üçün 2011-ci ildə Avropa İttifaqının vasitəçiliyi ilə dialoq prosesinə başlanılıb. Lakin müxtəlif illərdə iki ölkə arasında gərginlik yaşanıb.

## Almaniya Ukraynaya "MARS II" raket sistemləri verib



Almaniyanın "MARS II" raket sistemləri artıq Ukraynadadır.

Ukraynanın müdafiə naziri Aleksey Reznikov özünün tviter səhifəsində bu barədə yazıb.

"Almaniyadan olan MLRS "MARS II" Ukraynaya gəldi. Bu sistemlərə görə Almaniyaya və şəxsən həmkarım Kristin Lambrextə təşəkkür edirəm. Topçularımız alman tərəfdaşlarımızı təbrik edir!", - deyə paylaşımda qeyd olunur.

Nazir, həmçinin bildirib ki, ABŞ-ın daha 4 HIMARS reaktiv yaylım atəşi sistemi artıq Ukraynaya gətirilib.

**AZƏRTAC-ın materialları əsasında**

*Döyüşlərdən təəssüratlar*

# Qürurlanıram ki, Vətən müharibəsi iştirakçısıyam

*Yeniyetmə Həzi Aslanovun tam artilleriya generalı Səməd ağa Mehmandarova cavabı mənim də düşüncələrimin səmtini müəyyənləşdirib. Orta məktəbi bitirəndə hərbçi olmağı, həm də on illərdən sonra Həzi Aslanovun davamçılarından olmağı qərara almışdım. Ailəmiz fikrimi bəyəndi...*

Hərbi təhsilimi Rusiya Federasiyasının Omsk şəhərindəki hərbi məktəbdə almışam. Kursant olduğum illərdə zabitlərdən biri Azərbaycandan olduğumu biləndə səmimiyyətlə, hiss edilməsi çətin olmayan sevgi ilə əlini çiynimə qoyub dedi:

- Babam Həzi Aslanovun diviziyasında xidmət edib. Atam babamla söhbətlərindən sonra tankçı olmağı qərara alıbmış, mən atamın söhbətlərindən sonra. Yəni, mən özümü iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun davamçısı hesab edirəm...



Qürurlanmışdım. O qüruru indi də yaşayıram. Tankçı kimi, tank mütəxəssisi kimi yaşayıram.

Vətən müharibəsində döyüşçülərimiz düşmənin yüzlərlə döyüş texnikasını, tankını vurmuşdu. Vurulan tankların döyüşdən çıxarılması əsasən bizə tapşırılırdı. Tanklar çıxarıldıqdan sonra texniki kəşfiyyat qrupu onun istismara yararlı olub-olmadığını, təmirə hansı səviyyədə ehtiyacı olduğunu müəyyənləşdirirdi.

Vurulmuş tankı döyüş meydanında işə salmaq, hərəkətə gətirmək çətin və riskli işdir. Müharibə şəraitinə uyğun olaraq biz bu riskləri minimuma endirərək əmrləri məsuliyyətlə, ehtimal olunan müddətdə yerinə yetirirdik.

Bir epizod heç yadımdan çıxmaz. Yenə vurulmuş düşmən tankını çıxarmaq əmri verilmişdi. Əmri özüm yerinə yetirməyi qərara aldım. Çətinliklə də olsa tanka yaxınlaşıb onu işə saldım. Tank təzə idi və ermənilər yenə də qorxaq kimi texnikanı atıb qaçıbmış. Bir saatdan sonra həmin tank düşmənin özünün qənimine çevrildi. Necə sevinirdim! Həm düşmənə vurulan zərbələrə, həm də zərbənin düşmənin öz tankı ilə vurulduğuna görə!

Noyabrın 8-də Şuşa işğaldan azad edildi. Vətən müharibəsi noyabrın 10-da başa çatdı...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişəm.

Qürurlanıram ki, mən də həm Həzi Aslanovun davamçılarından biri, həm də Vətən müharibəsi iştirakçısıyam...

**Baş leytenant**
**Kərim MƏMMƏDOV**
**"N" hərbi hissəsi**

# Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gəmiləri ölkəmizə qayıdıblar




*Birgə hərbi fəaliyyətlər planına uyğun olaraq, Rusiya Federasiyasında səfərdə olan Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) gözətçi gəmiləri və şəxsi heyəti ölkəmizə qayıdıblar.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində Azərbaycan HDQ nümayəndə heyəti ilə Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının (HDD) Xəzər Flotiliyasının rəhbərliyi arasında görüş keçirilib.

Görüşdə Azərbaycan HDQ ilə Rusiya HDD Xəzər Flotilyası arasında dostluq münasibətləri və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Bundan başqa, hərbi dənizçilərimiz Rusiya Federasiyasında keçirilən bir sıra tədbirlərdə iştirak ediblər.

*Sıra hazırlığı*

# "Şuşadan gələn addım səsləri"



Şuşanın füsunkar gözəlliyini seyr edən zaman uzaqdan qulağıma nizami addımlarla irəliləyən əsgərlərimizin dediyi "Vətən sənə canım fəda" şüarının səsi gəldi. Ruhumuzun dinclik tapdığı bu yerdə eşitdiyimiz addım səsləri nəğmə kimi insanın cisminə hopurdu. Tez səs gələn tərəfə addımladım. Uzun zaman düşmən işğalında olan, Vətən müharibəsi ilə azad edilən Şuşa şəhərində leytenant Ağarəşid Əliyevin nəzarəti altında sıra hazırlığı məşğələsi keçirilirdi. Gənclərin verilən komandaları cəld yerinə yetirmələri, nizamlı şəkildə sağa-sola, geriyə dönmələri və yerində addımlamaları hər bir kəsə xoş ovqat aşılayırdı. Belə vətənpərvər və igid oğulların sayəsində düşmən məğlub oldu və Qarabağımız gerçək sahibinə qovuşdu.

Məşğələ rəhbərinin dərs prosesində əsgərlərə hərbi bilikləri öyrətməsi, sıra hazırlığının bütün incəliklərini ustalıqla izah etməsi onun bacarıqlı və peşəkar hərbçi olmağından irəli gəlirdi. Bu isə dərsin yüksək səviyyədə keçməsini təmin edən vacib amillərdən biridir. Belə məşğələlərin keçirilməsində əsas məqsəd şəxsi heyətə sıra vərdişlərini aşılamaq və onlarda ruh yüksəkliyi yaratmaqdır.

Dərsi maraqla izlədik. Leytenant Ağarəşid Əliyevin komandası ilə şəxsi heyət sıra elementlərini öyrənirdilər. Yaranan fasilə zamanı fürsətdən istifadə edərək zabitə yaxınlaşdım. O bildirdi ki, ordu sıralarında əsas amillərdən biri məhz nizam-intizamdır. "Bunun üçün biz təsdiq olunmuş günün nizam qaydasına uyğun olaraq şəxsi heyətə sıra hazırlığı məşğələsini keçirik. Əsgərlər verilən komandaları həvəslə yerinə yetirir və nizamnamənin bütün incəliklərini dərindən öyrənirlər".

Sıranın müqəddəsliyindən danışan məşğələ rəhbəri söhbətinə davam etdi: "Hər gün biz şəxsi heyətə Vətən uğrunda canlarından keçən minlərlə qəhrəman oğullarımızın hər zaman bizim sıralarımızda olduqlarından danışırıq. Çünki onların sayəsində ərazi bütövlüyümüzü bərpa edib, haqq-ədaləti bərqərar etdik. Buna görə də qəhrəman şəhidlərimizi hər zaman yaşadacaq və onların döyüş yollarını özümüzə örnək biləcəyik".

Söhbət zamanı öyrəndim ki, gənc zabitimiz Vətən müharibəsində Füzuli, Qubadlı və Şuşanın işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək şücaət göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Hərbi xidmətə Balakən rayonundan çağırılan əsgər Rasim Ağayev Vətəni qorumaq kimi müqəddəs və şərəfli bir vəzifəni yerinə yetirmək üçün bacarıqlı bir əsgər olmağın sirlərindən danışdı. "Qarşıya qoyulan şərəfli vəzifənin öhdəsindən gələ bilmək üçün hərbin bütün sirlərinə dərindən yiyələnib, nizam-intizamlı olmalıyıq. Bunun üçün peşəkar komandirlərimizin nəzarəti altında keçirilən məşğələlərdə fəal iştirak edir, sıra elementlərini öyrənirik. Keçirilən dərslərin nəticəsidir ki, bilik və bacarıqlarımız, döyüş ruhumuz yüksək səviyyədədir".

- Bu gün Azərbaycan Ordusunun əsgəri adını daşımaqdan və ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərində xidmət etməyimdən qürurverici heç nə ola bilməz, - deyə əsgər Sənan Kərimli söhbətə başladı. - Hər zaman əsgər olmağı və Vətənə olan övladlıq borcumu şərəflə yerinə yetirməyi arzulamışam. Vətən müharibəsində 18 yaşım tamam olmadığı üçün xidmətə gələ bilmədim. Bunun üçün heyfsilənmirəm. Çünki Vətənimizin igid oğulları bütün şəhidlərimizin qisasını almaqla yananı şı, doğma torpaqlarımızı işğalçılardan azad etdilər. O an yaşadığımız hissləri sözlə ifadə edə bilmərəm. Müzəffər Ali Baş Komandan qələbə müjdəsini xalqımıza çatdıranda sevincimizdən gözlərimiz yaşardı, ruhum sanki cismimdən ayrılaraq Qarabağa uçdu. Bu xoşbəxtliyi bizə yaşadan bütün əsgər və zabitlərimizə hər zaman minnətdar olacağıq. Mən də öz növbəmdə söz verirəm ki, xidmətimi düzgün təşkil edəcək, verilən bütün əmr və tapşırıqlara sözsüz tabe olacağam.

Əsgər Ayxan Mahmudov da Qarabağın tacı olan Şuşa şəhərində xidmət etməyin qürurundan danışdı: "Uzun illər bu torpaqlarda ermənilər gəziblər. Artıq işğala son qoyulub. Təkcə Şuşadan yox, Hadrutdan, Füzulidən, Ağdamdan Cəbrayıldan, Kəlbəcərdən, Laçından... Azərbaycan əsgərinin addım səsləri gəlir. Sıra hazırlığı dərslərində hər atdığımız addım Xanın, Bülbülün nəğmələri ilə qarışır. Nə xoş bizə ki, qalib ordunun sıralarında Azərbaycanın ərazi bütövlüyünün qorunmasına xidmət edirik".

Əsgərlər Fərid Cəfərov, Amil Orucov, İlkin Mehdiyev və başqaları da keçirilən dərslərin mahiyyət və əhəmiyyətindən, Azərbaycan Ordusunda xidmət etməyin qürurundan, sosial-məişət şəraitlərinin yüksək səviyyədə olmağından, Vətənə sədaqətlə xidmət etdiklərindən danışdılar. Burada xidmət edən əsgərlər bir amal uğrunda birləşiblər - ölkəmizin müdafiəsində ayıqsayıq dayanmaq.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# İdman

## Sərbəst güləş üzrə millimiz İtaliyada keçirilən U-17 dünya çempionatında tarixi uğura imza atıb



Sərbəst güləş üzrə millimiz İtaliyanın paytaxtı Romada keçirilən U-17 dünya çempionatında tarixi uğura imza atıb.

Mundialda 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanan yığmamız 122 xalla komanda hesabında dünya üçüncüsü olub. ABŞ 190 xalla birinci, Hindistan isə 126 xalla ikinci yeri tutub.

Beləliklə, millimiz bu yaş qrupunda medalların əyarına görə son 8 ilin, medalların sayına görə isə son 5 ilin ən yaxşı nəticəsinə imza atıb. Toplanan 122 xal isə U-17 dünya çempionatları tarixində sərbəst güləş üzrə yığmamız üçün yeni rekorddur.

Xatırladaq ki, millimizin üzvlərindən Vasif Bağırov (48 kq) və İlyas İsayev (65 kq) qızıl, Bəşir Verdiyev (45 kq) gümüş, Elman Ağayevlə (51 kq) Ağanəzər Novruzov (71 kq) bürünc medal qazanıblar.

## Azərbaycanın basketbol üzrə U-18 komandası Avropa çempionatında bürünc medal qazanıb



San-Marinoda gənc basketbolçular arasında təşkil olunan Avropa çempionatının C divizionunda mübarizə aparan Azərbaycanın U-18 komandası üçüncü olub.

Bürünc medal uğrunda görüşdə millimiz qrupda məğlub etdiyi Lüksemburq seçməsi ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə yığmamız qalib gəlməyi bacarıb. Əlavə vaxtın ayrıldığı oyunda Tahir Baxşıyev və Anar Sarıyevin yetirmələri yekunda 78:73 hesabı ilə parketdən qalib ayrılaraq Avropa çempionatının bürünc medalına sahib olublar.

## Çimərlik futbolu üzrə Azərbaycan millisi yenidən Səudiyyə Ərəbistanı yığmasına qalib gəlib



Çimərlik futbolu üzrə Azərbaycan milli komandası növbəti yoldaşlıq oyununu keçirib.

Bakı Su İdman Sarayının ərazisindəki çimərlik futbolu meydançasında Səudiyyə Ərəbistanı yığması ilə qarşılaşan millimiz 6:4 hesabı ilə qələbə qazanıb.

Orxan Məmmədov və Sabir Allahquliyevin dubl etdiyi oyunda komandamızın digər qollarını Vaqif Şirinbəyov, Cəmərd Baxşəliyev vurublar.

Komandalar arasında iyulun 31-də təşkil olunan ilk yoldaşlıq oyununda seçməmiz 4:1 hesabı ilə qalib gəlib.

## Qadın şahmatçılarımız Olimpiadada məğlubiyyətsiz irəliləyirlər



Hindistanın Çennay şəhərində 44-cü Ümumdünya Şahmat Olimpiadası davam edir.

Avqustun 1-də keçirilən 4-cü turda qadın yığmamız (Günay Məmmədzadə, Gövhər Beydullayeva, Xanım Balacayeva və Ülviyyə Fətəliyeva) İsrail şahmatçılarını 3:1 hesabı ilə məğlub edib.

Qeyd edək ki, şahmatçılarımız ötən turları da qələbə ilə başa vurublar.

Olimpiadada qadınların turnirində 162 ölkədən komandalar mübarizə aparırlar.

İsveçrə sistemi üzrə keçirilən və 11 turdan ibarət yarış avqustun 9-dək davam edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 790
Nüsxə 4660